# Kazuslar

## 1-ci kazus

**Jurnalist:** Axşamınız xeyir, xanımlar və cənablar, mən TV1-in müxbiri Coan Kurikəm və mən Daxili İşlər Nazirliyindən Daxili İşlər Naziri, Cinayət İstintaq İdarəsinin rəisi cənab Uolls və Cinayət bölüyünün rəhbəri cənab Martinin də iştirak etdiyi və polisin illik büdcəsinin açıqlanmasına həsr olunmuş mətbuat konfransını işiqlandırıram.

**Nazir:** Təssüflər olsun ki, iqtisadi böhran bizi polis də daxil olmaqla bütün xidmətlər üzrə maliyyə xərcləri azaltmağa sövq edir. Lakin, icazə verin sizi bir daha əmin edim ki, bunun maaşlara təsiri olmayacaq, baxmayaraq ki, növbəti 12 ay ərzində onlar dondurulacaq – bunu etməkdə məqsəd işçi qüvvəsini artırmaqdan ibarətdir, cünki artmaqda olan cinayətkarlığa qarşı mübarizədə bu zəruridir.

**Jurnalist:** Cənab nazir, 4 gün əvvəl baş vermiş və keçmiş parlament üzvü və nazir cənab Smitin amansızcasına qətlə yetirildiyi hadisənin intintaqı ilə bağlı nə deyə bilərsiniz?

**Nazir:** Yəni, hamınıza məlumdur ki, cənab Smit, yaşayış binasında, öz maliyyə məsləhətçisi cənab de Verqa ilə birlikdə planladığı kommersiya əməliyyatında onun maliyyə partnyorlarından biri olan cənab Con Loqanın mənzilinin qapısının önündə öldürülüb. Cənab de Verqanın mənzili bir mərtəbə yuxarıda yerləşir.

**Jurnalist:** Bu üç şəxs arasındakı maliyyə münasibətlərini bir az daha açıqlaya bilərsiniz?

**Cinayət istintaq idarəsinin rəisi:** Keçmiş nazir Smitin planlaşdırdığı əməliyyat onun tərəfindən götürülən kredit vasitəsilə ödənilməli idi. Daha sonra həmin kredit cənab Con Loqana ötürülməli idi və beləliklə kreditin qaytaraılmasına görə cənab Loqan məsuliyyət daşıacaqdı.

**Journalist:** İndiyə qədər aparılmış həbslər barədə məlumat verə bilərsiniz? Xüsusilə, belə söhbətlər gəzir ki, bu gün səhər tezdən həbs olunan …..

**Cinayət bölüyünün rəhbəri:** Bildiyiniz kimi keçmiş Baş Nazirin qətli ilə bağlı qəsdən adam öldürmə maddəsi ilə dərhal cinayət işi üzrə istintaq başladılmışdır və dünən cinayət bölüyü qurbanın maliyyə məsələləri üzrə məsləhətçisi cənab De Verqa da daxil olmaqla bir neçə nəfəri həbs edib. Bu gün səhər tezdən yeni həbs həyata keçirilmişdir və icazə verin ki, bu fürsətdən istifadə edərək bildirim ki, artıq bu həbs ilə bu istintaqı başa çatmış hesab etmək olar, çünki həmin qətl hadisəsinə görə məsuliyyət daşıyanlar artıq ədalət mühakiməsinə təhvil veriliblər.

**İstintaq rəisi:** Aydındır ki, cənab De Varqa və onun biznes partnyoru cənab Loqan bu işdə əsas fiqurlardır və onlar qətl hadisəsinin törədilməsini təhrik edən şəxslər olublar.

**Daxili İşlər Naziri:** Mən burda olan polis nümayəndələrini gördükləri yüksək səviyyəli fəaliyyətə və hamımızı şoka salan hadisəyə görə məsuliyyət daşıyanları belə qısa müddət ərzində müəyyən etdiklərinə görə təbrik etmək istəyirəm. Və bu yaxşı xəbəri verməklə bildirmək istəyirəm ki, vaxt başa çatdi, başqa suala cavab verməyəcəyik. Diqqətinizə görə təşəkkür edirik! Hamınızın Yeni ili mübarək olsun!

**2-ci kazus**

2003-cü ilin mart ayında Boris məlumat verən şəxs tərəfindən (informator), sağlamlığı ilə bağlı olan səbəblərdən azadlığa buraxıldıqdan sonra heroin qaçaqmalçılığı ilə məşğul olan beynəlxalq şəbəkəyə başçılıq etməkdə günahlandırılıb. Buna müvafiq olaraq, prokurorluq mütəşəkkil cinayət qrupu tərəfindən narkotik mal dövriyyəsi işi üzrə istintaq başlatmışdır.

5 noyabr 2003-cü ildə Borislə bağlı telefon danışıqlarının dinlənilməsi və izləmə əməliyyatlarından sonra narkotik maddə bölüyü yarım tondan çox heroin müsadirə etmişdir. Narkotik maddə bölüyünün əməkdaşları ərizəçini eyni gündə həbs ediblər. 9 noyabr 2003-cü il tarixində o, hakim qarşısına çıxarılıb və həbsdə saxlanıb.

Digər bir icraat kontekstində həbs olunmuş bir şübhəli şəxs öz ifadəsində bildirmişdir ki, o, Borisin təşkilatından 128 kq heroin əldə etmişdir.

5 dekabr 2003-cü ildə heroinin müsadirə olunması ilə bağlı Jandarma Baş Komandanı press reliz dərc edərək ərizəçini "beynəlxalq narkotik maddə dovriyyəsi ilə məşğul olan şəxs" kimi təsvir etmiş və bildirmişdir ki, istintaq davam edir. Cinayət işi bütövlükdə ölkə mediası tərəfindən geniş şəkildə işıqlandırılmışdı.

Ərizəçi Ağır Cəza Məhkəməsi tərəfindən verilmiş məhkəməyəqədər saxlama əmri əsasında həbsdə qalmağa davam etmişdir. Məhkəmə bu əmri araşdırması aparılan işin kontekstində şəxsin təqsirli olmasına dair güclü şübhələrin olması və narkotik maddələrlə bağlı cinayətin xarakterinin ağırlığı əsasında vermişdir.

**3-cü kazus**

2002-ci ilin dekabrında ölkənin aparıcı gündəlik qəzeti Yayın qanununa düzəliş edilməsi ilə bağlı qanunvericilik prosedurunda baş verən rüşvətxorluğa dair məqalə dərc etmişdir. Məqalədə ərizəçi, məşhur film produseri və bir sıra yüksək rütbəli dövlət məmurları tənqid olunurdular. Mətbuatdakı açıqlamalardan sonra Apelyasiya Məhkəməsindəki prokurorluq idarəsi ərizəçiyə qarşı nüfuz alverinə görə iş açıb. Bir neçə gün sonra Parlamentin aşağı palatası məsələ ilə bağlı parlament araşdırması aparmaq üçün komissiya təşkil edib. Komissiyanın məqsədi parlament nəzarətində olan dövlət qurumları və institutları tərəfindən törədilən pozuntuların parlamentdə müzakirəsinə səbəb olacaq və ya ən azından töhvə verəcək hesabatın hazırlanmasından ibarət idi. Rəsmi mövqedən çıxış etməyən şəxslərin davranışı komissiya tərəfindən yalnız dövlət institutlarının və qurumlarının işindəki pozuntuları aşkar etmək üçün tələb olunan dərəcədə yoxlanıla bilərdi.

İş geniş media işıqlandırmasına səbəb oldu. Digər tədbirlərlə yanaşı ərizəçi həftəlik qəzetə qarşı iddia qaldıraraq onun təqsirsizlik prezumpziyasının pozulduğundan şikayət edib. Onun iddiası rədd edilib. Komissiyanın araşdırma ilə bağlı keçirilən iclaslarının əksəriyyəti ictimaiyyətə açıq keçirilib və radio və televiziya ilə yayımlanıb. Komissiyanın iclaslarının protokolları sistemli olaraq parlamentin internet səhifəsində yerləşdirilib və media tərəfindən geniş şəkildə şərh edilib. Komissiya ərizəçiyə qarşı cinayət işini aparan prokurorluq idarəsi ilə sıx əməkdaşlıq şəraitində işləyib. Komissiyanın sədri prokurorlugdan müəyyən istintaq hərəkətlərini etməyi xahiş edib və onlar arasında müəyyən məlumatlar mübadiləsi baş verib. 2004-cü ilin aprelində komissiya özünün yekun hesabatını qəbul etdikdən bir-iki gün sonra ərizəçi dələduzluğa cəhd göstərməkdə təqsirli bilinib. 2004-cü ilin mayında Parlamentin aşağı palatası komissiyanın üzvlərindən biri tərəfindən yazılmış kölgə hesabatını təsdiqləmişdir. 2004-cü ilin dekabrında Apelyasiya məhkəməsi ərizəçini nüfuz alveri əməlinə yardım etdiyinə görə azadlıqdan məhrum etmişdir

.

Məhkəmə baxışı zamanı ərizəçi iddia etmişdir ki, onun təqsirsizlik prezumpziyası hüququ və işinə müstəqil və qərəzsiz məhkəmə tərəfindən baxılması hüququ parlament komissiyası tərəfindən araşdırma aparılarkən pozulmuşdur. Həmin araşdırma sözügedən cinayət işinin məhkəmə araşdırması ilə eyni vaxtda aparılmış, eyni faktları və eynı halları araşdırmışdır. Ərizəçi həm araşdırmanı aparan komissiyanı yaradan Parlamentin aşağı palatası tərəfindən qəbul edilən qətnamənin ifadə tərzi və istifadə etdiyi ifadələrdən, həm də komissiyanın yekun hesabatında qeyd olunmuş tapıntılardan şikayət etmişdir. Bundan əlavə o, iddia etmişdir ki, hər iki icraatın mediada işıqlandırılması ona qarşı olan cinayət işinin xarakterini daha da ağırlaşdırmışdır. O, haqlıdırmı?

**3-cü kazus**

Üç ərizəçiyə qarşı qaçaqmalçılıq iddialarına görə cinayət işi açılıb. Onlar 1992, 1998 və 2000-ci illərdə yekun xarakter alan qərarlarla bəraət alıblar. O zaman onlara inzibati cərimələr ödəmək əmr olunub. Bu məbləğ bir ərizəçi ilə bağlı təqribən 130 000 avro və yerdə qalan iki ərizəçi ilə bağlı bir neçə yüz min avro təşkil edib. İnzibati icraat 2011 və 2012-ci ildə Ali Məhkəmənin qərarları ilə yekunlaşıb. Ərizəçinin hüquqi məsələlərlə bağlı apelyasiya şikayətlərini rədd etməklə Ali İnzibati Məhkəmə qeyd etmişdir ki, inzibati orqanlar cinayət məhkəmələri tərəfindən verilən hər hansı bəraət hokmünə tabe olmaq məcburiyyətində deyillər, belə ki, ölkə qanunvericiliyinə əsasən yalnız cinayət məhkəmələrinin şəxsi təqsirli olduğunu tanıyan qərarları inzibati məhkəmələr üçün *res judicata* qüvvəyə malikdir.

Birinci ərizəçiyə qarşı olan cinayət və inzibati icraatlar 1985 and 1986-ci illərdə müvafiq gömrük rüsumu ödəmədən on iki elektron cihazın, öv tüfənginin, vinç və video kameranın ölkəyə gətirilməsinə dair idi. Ikinci ərizəçiyə qarşı olan iki icraat 1993 və 1995-ci illərdə alış sertifikatı olmadan benzin və dizel yanacağı satışı ilə məşqul olmağa dair idi. Üçüncü ərizəçiyə qarşı iki icraat gömrük rüsumu ödəmədən Yunanıstana 1992-ci ildə iki lüks avtomobil gətirməkdən və onlardan gömrük təmizlənməsi olmadan istifadə etməkdən ibarət idi.

İşin halları AİHK-nın 6-cı Maddəsinə əsasən şikayət etməyə əsas verirmi?

*Hazırladı: İvana Roagna*